Azərbaycan.- 2024.- 2 aprel, № 67.- S. 9

# Böyük Zəfərin başlanğıcı

"2016-cı il aprel ayının əvvəlində baş verən Aprel döyüşləri Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Suqovuşan kəndi istiqamətində bəzi mövqelər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı və Goranboy rayonunun Gülüstan kəndi düşməndən azad edildi. Silahlı qüvvələrimizin "məğlubedilməz" erməni ordusu mifini darmadağın etməsi ilə Vətən müharibəsindəki şanlı zəfərimizin bünövrəsi qoyuldu".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat söyləyib ki, dünya hərb tarixində xüsusi yeri olan İkinci Qarabağ müharibəsində əldə etdiyimiz şanlı zəfərin təməli Aprel döyüşləri zamanı qoyuldu. Aprel hadisələri zamanı yaşayış məntəqələrimizi və cəbhəboyu mövqelərimizi intensiv atəşə tutan erməni canilərinin başı "dəmir yumruq"la əzildi. Azərbaycan erməni faşizminə böyük zərbə vurmaqla Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərpası üçün yeni şərtlər yaratdı.

Ümumiyyətlə bu, 1994-cü ildə imzalanmış atəşkəs sənədindən sonra qoşunların təmas xəttində baş verən ən böyük hərbi qarşıdurma idi. Azərbaycan Ordusu 2 min hektardan artıq ərazini düşməndən azad etdi. Aprel döyüşlərində ermənilərə məxsus tanklar, zirehli texnikalar və möhkəmləndirilmiş mühəndis qurğuları sıradan çıxarıldı, o cümlədən düşmənin üç yüzdən çox hərbi qulluqçusu məhv edildi və zərərsizləşdirildi. Aprelin 4-də separatçı qüvvələr itirilmiş mövqeləri geri qaytarmaq məqsədilə mövqelərimizə yenidən hücum etsələr də, onlar əsgər və zabitlərimizin şücaəti qarşısında diz çökməyə məcbur oldular", - deyə müsahibimiz bildirib.

Arzu Nağıyev qeyd edib ki, Ermənistan Aprel döyüşləri ilə bağlı müxtəlif ziddiyyətli xəbərlər yaymağa çalışsa da, son nəticədə məğlubiyyətini etiraf etdi: "Təsadüfi deyil ki, Aprel döyüşlərindən sonra Ermənistanın çoxsaylı yüksəkrütbəli hərbi rəsmiləri, eləcə də hərbçiləri işdən qovuldular və ya həbs edildilər. Azərbaycan isə sanki sınaq meydanında idi və yaxın gələcəkdə torpaqlarımızı tamamilə işğaldan azad etmək üçün döyüş təcrübəsi toplayırdı. Döyüşlər zamanı silahlı qüvvələrimizin arsenalında olan hərbi sursatları və texniki avadanlıqları sınaqdan keçirdik. Həmçinin müasir texnika ilə işləyə bilən milli kadrlarımızı ortaya çıxardıq. Ermənistan ordusu isə döyüşə nə qədər hazırlıqsız olduğunu göstərdi".

Deputat yekunda onu da qeyd edib ki, Aprel döyüşləri zamanı ermənilərin əvvəllər öz qoşun hissələri və müdafiə mexanizmləri ilə bağlı yaratdıqları mif darmadağın edildi: "Vətən müharibəsindən öncə aparılan əməliyyatlardan ən mühümü məhz Aprel döyüşləridir. Aprel hadisələri ermənilərə vurulan ən ciddi zərbələrdən biri idi. Burada da təbii ki, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun rəşadəti, əsgər və zabitlərimizin və xalqımızın sonsuz Vətən sevgisi əvəzedilməz rol oynadı. Bundan başqa, hərbi əməliyyatlar zamanı müasir texnika və texnologiyalardan istifadə edən qoşun növlərinin və kəşfiyyatçıların proseslərdə koordinasiyalı iştirakı öz yüksək nəticəsini göstərdi. Beləliklə, Azərbaycanın zəfəri ilə başa çatan Aprel döyüşləri tariximizə mühüm hərbi qələbə kimi yazıldı. Suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasında mühüm rola malik olan bu döyüşlər tarixin yaddaşında hər zaman qalacaq".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*